# EKOLOGİYA SAHƏSİNDƏ DƏYƏRLİ-ELMİ KİTAB

Əli Rza Xələfli müsair şeirimizin də, publisistikamızın da layiqli təmsilçisidir. Bu sənətkarı tanıdığım gündən həmişə xoş sözlərini dinləmişəm, onun vətənpərvərliyi, istiqanlı-saf könül ahəngi ayrı cür təsir bağışlayıb könlümə. Bu yaxınlarda ədibə - onun yaradıcılığından bəhs edən "Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər"i. (müəllif Yusif Dirili (Mahmudov)); (Bakı, Gənclik; 2025) görüb çox sevindim. Kitab çox gözəl bir tədqiqat əsəridir. Bəzən bu cür tədqiqatlar digər elm adamı - sırf tədqiqatçı (tarixçi, coğrafiyaşünas və s.) yazılanda daha əhəmiyyətli olur. Onlar da bədii əsərdəki elmi faktı üzə çıxarmağa çalışır. Keçmişdə belə bir ənənə vardı. Coğrafiyaşünas alimlər - xüsusilə indiki APU-nun müəllimləri (O.Osmanov, M.Mirzəyev və b.) gözəl dərslik nümunələri yazırdılar orta və ali məktəb tələbələri üçün. Geniş oxucu kütləsi üçün də nəzərdə tutulurdu həmin nəşrlər. Hətta rus-sovet məktəb pedaqogikasının da ənənəsi hesab olunurdu bu ənənə. Bizim tarixçimiz də o yolla getmişdir. Həmin ziaylıların yolu ilə gedərək biologiyanın ən çətin yolu olan bəlkə də - ekologiyanın bir ədibin yaradıcılığında necə mükəmməl təsvir obyekti tapdığını izah etmişdir. Xüsusən də, kitabda "Əli Rza Xələfli bayatılarında təbiət-insan münasibətləri" daha güclü təsir bağışladı bizə. Ümumiyyətlə, Xələflinin lkassik irsə münasibəti - onun ənənəsinə bağlılığı bütün şair nəslində eyni cür hiss olunmur. O bu ənənəni "Kredo" da yaşadır. Bu qəzet əsl ədəbiyyat və incəsənət qəsetidir. Onun güzgüsüdür. O bütün ədiblərə məhəbbətlə yanaşır, onların ənənəsini layiqincə yaşadır. Gənclərdən yazmağı bacaran ona yad deyil. Amma ənənəni, yaxşı dəyəri sevən olsun. Əlbəttə, sənət anlayışı "şou" ilə qarışmamlıdır. Bu ən gözəl, ideal tələbdir.




Y.Dirili (Mahmudov) yaxşı tədqiqat əsəri yazıb. Təbiətə ziyan vuran faktorlardan bəhs edərkən, hələ professor A.Şükürovun ötən əsrin 40-cı illərinin əvvəllərində bir ekoloji problemlərə həsr olunmuş kitabında etdiyi geniş mülahizələri yada saldım. O antropogen amillərə daha güclü izahatlar verirdi. Y.Dirili isə bir neçə ictimai-tarixi amillə də əlaqələndirir. O, bizi bu kitabdakı qeydləri ilə humanist bəşəri amallardan nəticə çıxarmağa səsləyir şerin harayı ilə. "Poetika" əsərinə yazılmış izahatlarda poeziya ünsürləri dərin hesab edilir. Bəli, şeir canlı tarixdən bəhs edir. Bu ah-nalə vətənindən uzaq düşmüş cəfakeş bir şairin harayıdır. Şair onu daha güclü hiss edir - daha dolğun da təsvir edir - nəzmə çəkir. Ətraf mühitin problemləri həqiqətən bayatı dilində daha təsirli, real əks olunur. Bu kitabı yazan tarixçiyə "çox sağ ol" düşür ancaq. Sözümüzü şairin bir bayatısı ilə tamamlayaq:

Torpaq yansa, su dilər,
Aşıq qəlbi su dilər.
Yara alan qan verər,
Əvəzində su dilər.

***Elsevər MƏSİMLİ***